**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası**

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası**

# AZƏRBAYCAN RESPUBLIKASINDA QEYRI-RƏSMI MƏŞĞULLUĞUN QARŞISININ ALINMASINA DAIR TƏDBIRLƏR PLANI

## İcra vəziyyətinə dair mövqe sənədi

Mövqe sənədi Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən həyata keçirilən **"Hüquqi və fiziki şəxslərin əmək münasibətlərinin rəsmiləşdirilməsi sahəsində bilik və bacarıqlarının artırılması məqsədi ilə maarifləndirici tədbirlərin təşkili"** layihəsi çərçivəsində hazırlanmışdır

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası**
**Bakı şəhəri, AZ1078, Ə.Hüseynov küçəsi, 1061-ci məhəllə, ev 7, mənzil 347**
http://labourrights-az.org/en
e-mail: office@labourrights-az.org

**BAKI-2018**

**MÜNDƏRİCAT**


**İcmal...........................................................................................................3**

**Metodologiya...................................................................................4**

**Qeyri-rəsmi əmək bazarının ləğvinə yönələn siyasət və fəaliyyətlər................5**

**Qeyri-rəsmi əmək bazarının həcminin məhdudlaşdılması problemləri..........6**

**Tədbirlər planinin 5-ci bölməsinin icra vəziyyəti.............................................7**

**Tədbirlər Planının 5-ci bölməsinin icrası ilə bağlı qənaətlər...........................13**

**Tövsiyələr...........................................................................................14**

**İCMAL**

2017-ci ilin statistik məlumatına görə Azərbaycan əhalisinin sayı 9 858 860 nəfər təşkil edib. Əhalinin 53%-i şəhər, 47 %-i kənd əhalisidir. Cins tərkibinə görə əhalinin 49,9 %-i kişilər, 50, 1 %-i isə qadınlardır.

Son məlumatlra görə bu əhalinin 5 006 008 nəfəri iqtisadi fəal əhalidir.

Təxmini hesablamalara görə 2017-ci ildə muzdla işləyənlərin orta illik sayı 1 milyon 520 min nəfər və ya məşğul əhalinin 32,1 faizi qədər, iqtisadiyyatda sərbəst məşğul əhalinin orta illik sayı isə 3 milyon 220 min nəfərə yaxındır.

Yuxarıda göstərilən və "iqtisadiyyatda sərbəst məşğul" sayılan əhalinin əhəmiyyətli hissəsi əslində qeyri-rəsmi əmək bazarının iştirakçısıdır.

Ölkədə qeyri-rəsmi əmək münasibətlərinin yüksək səviyyədə olması, özünüməşğul şəxslərin əksəriyyətinin isə vergi uçotunda olmadan "kölgə iqtisadiyyatı" nıda təmsil olunması ciddi narahatlıq yaradır. Bu baxımdan son illərdə dövlət tərəfindən həm qanunvericilik sahəsində həm də mövcud praktikada dəyişikliklərin baş verməsi üçün mühüm addımlar atılmaqdadır.

Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli "**Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında"** Sərəncamı ilə "**Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası"** yaradılmışdır. Komissiya ölkədə olan əmək münasibətləri ilə bağlı problemləri öyrənmiş və bu sahədə ciddi problemlərin olmasını müəyyən etmişdir.

Azərbaycan Respublikasının Prezidenti həmçinin 28 aprel 2017-ci il tarixli "**Tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında**" fərman imzalayıb və ASAN xidmət nəzdində Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi yaradılıb.

Hər iki sənəddə əmək bazarında qeyr-formal məşğulluğun qarşısının alınması ilə bağlı müvafiq tapşırıqlar və normalar əks olunub.

Qeyri-formal məşğulluğu doğuram müxtəlif səbəblər içərisində məlumasızlıq və zəruri maarifləndirmə işlərinin geniş şəkildə aparılmaması da qeyd edilir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli 3287 nömrəli Sərəncamı ilə **"Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı**" təsdiq olunmuşdur. 5 bölmədən ibarət tədbirlər planında cəmi 36 fəaliyyət istiqaməti müəyyən edilmişdir. Tədbirlər planının 5-cı bölməsi "Qeyri-rəsmi məşğulluğa qarşı məlumatlandırma və təbliğat işlərinin təşkili"adlanır. Həmin bölmənin 5.1. bəndində "**Qeyri-rəsmi məşğulluqla mübarizə tədbirləri barədə genişmiqyaslı maarifləndirmə, məlumatlandırma və təbliğat kampaniyasının keçirilməsi"** nəzərdə tutulub. Tədbirlər planında maaarifləndirmə və məlumatlandırma mexanizmləri kimi KİV-lərdə maarifləndirici yazıların verilməsi, sosial çarxların hazırlanmsı, konfransların keçirilməsi kimi tədbirlər nəzərdə tutulur. Bu bölmədə nəzərdə tutulan fəaliyyətlərin icrasına məsul olan dövlət qurumları aşağıdakılardır:

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti.

Tədbirlər Planının 5-ci bölməsindəki bəzi  fəaliyyətlərin icrası üçün İctimai Televiziya, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına da müvafiq işlərin görülməsi tövsiyə olunmuşdur.

Təqdim olunan bu mövqe sənədində Tədbirlər Planın 5-ci bölməsi üzrə həyata keçirilən fəaliyyətlərin təhlili aparılır və icra vəziyyəti ilə bağlı alternativ mövqe təqdim edilir. Sənəddə həmçinin Tədbirlər Planının icrasıda effektivliyin artırılması, eləcə də qeyri-rəsmi əmək bazarının ləğvi ilə bağlı tövsiyələr yer alır.

## METODOLOGİYA

Tədbirlər Planının (TP) 5-ci bölməsində əks olunan qeyri-rəsmi məşğulluğa qarşı məlumatlandırma və təbliğat işlərinin təşkili üzrə fəaliyyətlərin icrası ilə bağlı sənəd hazırlanarkən aşağıdakı alət və üsullardan istifadə edilmişdir:

***Məsul orqanlara yazılı informasiya sorğularının göndərilməsi***

"Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın 5-ci bğlməsinin icrasına məsul olan dövlət və qeyri-dövlət orqanlarına yazılı informasiya sorğuları göndərilməklə TP-nın 5-ci bölməsində göstərilən fəaliyyətlərin icra gedişinə dair məlumatları əldə edilməsi, işlənilməsi və onların əsasında yekun qənaətlərin hazırlanması nəzərdə tutulur.

***Qanunvericiliyin təhlili***

Məşğulluq və əmək münasibətləri sahəsində mövcud olan qanunvericiliyin təhlili. Bu təhlillərdə əhəmiyyət verilən əsas istiqamət mövcud qanunvericilikdə qeyri-rəsmi əmək bazarının formalaşmasına şərait yaradan boşluqlar və ziddiyyət yaradan müddəaların müəyyən edilməsidir. Qanunvericilikdə və onun tətbiqi praktikasına dəyişikliklərinin edilməsini, yeni mexanizmlərin tətbiqini  zəruri edən şətlərin müəyyən edilməsi nəzərdə tutulur.

***Fəaliyyətlərin təhlili***

Tədbirlər Planı  və digər sənədlər çərçivəsində qeyri-rəsmi məşğulluğun aradan qaldırılmasına yönələn fəaliyyətlərin təhlili. Hökumətin qeyri-rəsmi məşğulluğun hüdudlarının azaldılmasına yönələn fəaliyyətləri və bu fəaliyyətlrdə maarfləndirci və məlumatlandırıcı komponentlərin əhəmiyyəti və nəticələrinin təhlili. Maarifləndirmə və məlumatlandırmaya yönələn fəaliyyətlərdə qüsurlar, vətəndaş cəmiyyəti və digər maraqlı tərəflərin  iştirakçılığının göstəricilərinin müəyyən edilməsi nəzərdə tutulur.

***Açıq mənbələrdə yerləşdirilən və Tədbirlər Planının 5-ci bölkməsinin icrasını əks etdirən məlumatların təhlili***

TP-nin 5-ci bölməsinin icrasına məsul olan dövlət və qeyri-dövlət orqanlarının həyata keçirdikləri fəaliyyətlərin kütləvi-informasiya vasitələrində işıqlandırılması, müvafiq dövlət

orqanlarının bu fəliyyətlərlə bağlı "İnformasiya Əldə Etmək" Haqqında qanunun tələblərinə müvafiq olaraq açıqlanması vacib olan informasiyaları rəsmi veb səhifələrində yerləşdirib-yerləşdirməməsinin müəyyən edilməsi, həmçinin yerləşdirilən məlumatların dolğunluğu və keyfiyyət göstəricilərinin müəyyən edilməsi nəzərdə tutulur.

Sənəd hazırlanarkən yuxarıda göstərilən bütün üsullardan və alətlərdən istifadə edilmişdir.

Tətbiq olunan alət və üsullar əsasında əldə edilən məlumatlar ümumiləşdirilmiş və yekun qənaətlər və tövsiyələr hazırlanmışdır.

## QEYRİ-RƏSMİ ƏMƏK BAZARININ LƏĞVİNƏ YÖNƏLƏN SİYASƏT VƏ FƏALİYYƏTLƏR

Hökumətin qeyri-rəsmi əmək bazarının hüdudlarının məhdudlaşdırılmasına yönələn siyasəti əsasən aşağıdakılardır:

- Qanunvericiliyin təkmillədirlməsi;
- Cəzaların sərtləşdirilməsi, hətta cinayət cəzasının müəyyən edilməsi;
- Çoxtərəfli komissiyaların və işçi qruplarının yaradılması;
- Dövlət proqramlarının və tədbirlər planlarının hazırlanması;
- Monitoriq sisteminin yaradılması;
- Və s.

Yalnız son illəri götürdükdə qanunvericilikdə xeyli ciddi dəyişikliklər edilmişdir. Belə ki:

- 2014-cü ildən əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi yaradılmışdır. Bununla bağlı Əmək Məcəlləsinə ciddi dəyişikliklər ediilmiş, bir sıra əlavə qanunvericilik aktları və təlimatlar hazırlanmışdır;
- İnzibati Xətalar Məcəlləsində əmək müqaviləsinin bağlanmaması ilə əlaqədər cərimələr artırılmış və Cinayət Məcəlləsinə əmək müqaviləsinin bağlanmaması ilə bağlı cinayət məsuliyyəti daxil edilmişdir;

Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli "**Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında**" Sərəncamı ilə "**Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası**" yaradılmışdır. Komissiya ölkədə olan əmək münasibətləri ilə bağlı problemləri öyrənmiş və bu sahədə ciddi problemlərin olmasını müəyyən etmişdir.

Azərbaycan Respublikasının Prezidenti həmçinin 28 aprel 2017-ci il tarixli "**Tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında**" fərman imzalayıb və ASAN xidmət nəzdində Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi yaradılıb.

Hər iki sənəddə əmək bazarında qeyr-formal məşğulluğun qarşısının alınması ilə bağlı müvafiq tapşırıqlar və normalar əks olunub.

Qeyri-formal məşğulluğu doğuram müxtəlif səbəblər içərisində məlumasızlıq və zəruri maarifləndirmə işlərinin geniş şəkildə aparılmaması da qeyd edilir.

Yuxarıda qeyd olunduğu kimi Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli 3287 nömrəli Sərəncamı ilə **"Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı**" təsdiq olunmuşdur.

Daha əvvəl qəbul olunmuş Azərbaycan Respublikas Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında mühüm əhəmiyyət kəsb edən istqamətlərdən biri də "**İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması"** istiqamətidir. Konsepsiyada əmək münasibətlərinə və məşğulluq məsələlərinə dair nəzərdə tutulan əsas tədbirlər aşağıdakılardır:

- İşləyən vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın inkişafından asılı olaraq minimum əmək haqqı məbləğinin tədricən minimum yaşayış standartlarına və Avropa ölkələrində müəyyən edilmiş normativə -orta aylıq əmək haqqının 60 faizi məbləğinə çatdırılması istiqamətində tədbirlər;
- Əhalinin ümumi gəlirlərində əməyin ödənilməsi payının artırılması üçün işlərin davam etdirilməsi;
- İşləyən vətəndaşların təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi sahəsində işlərin gücləndirilməsi, əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması üzrə Dövlət Proqramı hazırlanması;
- Əmək və məşğulluq sahəsində milli informasiya sisteminin yaradılması, əmək bazarında yaranan vəziyyətin monitorinqi və təhlili sisteminin qurulması;
- Qeyri-formal məşğulluğun qarşısının alınması üzrə ciddi tədbirlərin görülməsi;
- Əlilliyi olan şəxslərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi,onlar üçün məşğulluq imkanlarının artırılması məqsədi ilə sosial və peşə reabilitasiya müəssisələrinin sayının artırılması;
- Əmək miqrasiyası proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində beynəlxalq əməkdaşlığın davam etdirilməsi, ölkə vətəndaşlarının əməkçi miqrantlar qismində xarici ölkələrə göndərilməsi işinin beynəlxalq təcrübəyə uyğun tənzimlənməsinin təmin olunması.

"Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı" qəbul edilmiş və icra olunmuşdur.

## QEYRİ-RƏSMİ ƏMƏK BAZARININ HƏCMİNİN MƏHDUDLAŞDILMASI PROBLEMLƏRİ

Ölkədə məşğulluğun təmin olunması ilə bağlı siyasətin həyata keçirilməsinə ciddi problem yaradan digər amil ölkədə gizli əmək bazarında və ya qeyri-formal sektorda çalışan işçilərin sayının yüksək həddə olmasıdır. Belə halın mövcudluğu məşğulluq siyasətinin düzgün müəyyən olunmasına ciddi əngəl yaratmaqla bağlı həmçinin insan hüquqlarının ciddi surətdə pozulmasına gətirib çıxarır. "Ölkənin əmək bazarında "kölgə" əmək bazarının mövcudluğu əmək hüquqlarının kütləvi pozulmasına şərait yaradan əsas amillərdəndir. Hər hansı rəsmi və ya qeyri-rəsmi statistika olmasa da, ehtimallara görə rəsmi əmək münasibətlərinə daxil olmadan əmək fəaliyyəti ilə məşğul olanların sayı, rəsmi əmək münasibətlərinə daxil olaraq fəaliyyət göstərən işçilərdən az deyildir. Yüz minlərlə insanın qeyri - rəsmi əmək münasibətində olaraq əmək fəaliyyəti ilə məşğul olması o deməkdir ki, bu insanlara münasibətdə əmək qanunvericiliyi tətbiq olunmur. Belə işçilərin əmək fəaliyyəti həm dövlət, həm də həmkarlar ittifaqlarının nəzarətindən kənardadır[1].

Qeyri-formal məşğulluğun qiymətləndirilməsi üçün bu sahədə məlumatların toplanması vacib məsələlərdən biridir. Hazırda BƏT tərəfindən yalnız 47 ölkə üzrə bu sahədə müəyyən göstəricilər toplanmışdır. Son məlumatlara görə, kənd təsərrüfatı sektorunun qeyri-formal

---

[1] http://labourrights-az.org/wp-content/uploads/2014/07/Meshgulluq.pdf

məşğulluqda payı Cənubi Asiyada 82 faiz, Saxara səhrasından cənubda yerləşən Afrika ölkələrində 66 faiz, Çin istisna olmaqla, Şərqi və Cənub-Şərqi Asiya ölkələrində 65 faiz, Latın Amerikası ölkələrində 51 faiz, Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində 10 faiz təşkil edir[2].

Azərbaycanda iş qabiliyyəti olan əhalinin sayı təxminən 5 milyon nəfər təşkil edir, bunun da təxminən 4,7 milyon nəfəri hazırda məşğul əhalidir. Onların təxminən 1,5 milyon nəfəri muzdla işləyir, 1,7 milyon nəfəri isə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərir. Yerdə qalan əhali isə əmək fəaliyyəti ilə qeyri-rəsmi formada məşğuldur[3].

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında göstərilir ki, "Əmək və məşğulluq sahəsində milli informasiya sistemi yaradılacaq, əmək bazarında yaranan vəziyyətin monitorinqi və təhlili sistemi qurulacaq, qeyri-formal məşğulluğun qarşısının alınması üzrə ciddi tədbirlər görüləcəkdir"[4] . Hazırda bu sahədə fəaliyyətlər həyata keçirilməkdədir. Tədbirlər Planında və Milli Məclis tərəfindən yeni qəbul olunan "Məşğulluq haqqında" Qanunda "**Məşğul şəxslərin vahid informasiya bazası**"nın yaradılması, həmçinin "**Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatının** yaradılması nəzərdə tutulur.

Bununla belə geniş əhali kütləsinin və işəgötürənlərin maarifləndirlməsi və məlumatlandırılması sistemli xarakter almalıdır. Bu sahədə vətəndaş cəmiyyəti qurumları ilə səmərəli əməkdaşlıq mexanizmləri nəzərdə tutulmalıdır.

## TƏDBİRLƏR PLANININ 5-Cİ BÖLMƏSİNİN İCRA VƏZİYYƏTİ

Əmək münasibətlərinin rəsmiləşdirilməməsinin ilk növbədə işçilər üçün mənfi nəticələri vardır. Bununla belə işəgötürənlər belə qeyri-rəsmi münasibətlər qurmaqla vergi və sosial ödəmələrdən yayınaraq nisbi olaraq qazanc əldə etsələr də son nəticədə uduzurlar. Eynizamanda dövlətin vergi orqanları və sosial sığorta yığımını həyata keçirən orqanı da çox ciddi itkilərə məruz qalırlar.

Aparılan təhlillər, əmək bazarındakı vəziyyətlə bağlı keçirilən sorğular da onu göstərir ki, bir çox hallarda belə münasibətlərin qurulmasında tərəflərin məlumatsızlığı da rol oynayır. Xüsusən işçilərin əmək müqaviləsi bağlamadan işləməsinə həvəsləndirmək üçün onların belə halda daha çox əmək haqqı alacaqları ilə bağlı işəgötürənlərin yanlış təbliğatı mənfi rol oynamaqdadır. İşçilər son nəticədə itirməklərinin fərqində olmurlar və nəticədə qanunsuz sövdələşmə baş verir.

Tədbirlər Planının 5-ci bölməsi məhz bu sahədə əmək münasibətlərinin tərəfləri arasında geniş maarıfləndirmə və məlumatlandırma fəlaiyyətləri əhatə edir. Tədbirlər Planının bu bölməsində nəzərdə tutulan fəaliyatlər, bu fəaliyyətlərin icrasına cabadeh olan qurumlar, icra müddətləri və icra vəziyyəti ilə  aşağıda verilir:

***Qeyri-rəsmi məşğulluqla mübarizə tədbirləri barədə genişmiqyaslı maarifləndirmə, məlumatlandırma və təbliğat kampaniyasının keçirilməsi***

Bu fəaliyyətin icrasına məsul olan dövlət orqanları:

---

[2]Mənbə: http://www.xalqqazeti.com/az/news/social/89093
[3] Mənbə:http://xalqqazeti.com/az/news/economy/94110
[4] Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası.Mənbə: http://www.president.az/files/future_az.pdf

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti

Tövsiyə edilir: Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

İcra müddəti: Davamlı.
Gözlənilən nəticə: Qeyri-rəsmi məşğulluğun aradan qaldırılmasında maarifləndirmə işinin artırılması

***Qeyri-rəsmi məşğulluğun aradan qaldırılmasına dair konfransların və seminarların keçirilməsi***

Bu fəaliyyətin icrasına məsul olan dövlət orqanları:

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi, Təhsil Nazirliyi

Tövsiyə edilir: Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

İcra müddəti: Davamlı.
Gözlənilən nəticə: qeyri-rəsmi məşğulluğun aradan qaldırılmasında təbliğatın artırılması

***Qeyri-rəsmi məşğulluğun mənfi nəticələrinin, formal məşğulluğun üstünlüklərinin kütləvi informasiya vasitələri ilə ictimaiyyətin diqqətinə çatdırılması***

Bu fəaliyyətin icrasına məsul olan dövlət orqanları:

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti

Tövsiyə edilir: Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

İcra müddəti: Davamlı.
Gözlənilən nəticə: qeyri-rəsmi məşğulluğun qarşısının alınmasında kütləvi informasiya vasitələrinin rolunun artırılması

***Qeydiyyatdan yayınma hallarına daha çox rast gəlinən iqtisadiyyat sahələrindəki fəaliyyət subyektlərində qeyri-rəsmi məşğulluğun ictimai qınaq obyektinə çevrilməsinə hədəflənən təşviqat kampaniyasının təşkili***

Bu fəaliyyətin icrasına məsul olan dövlət orqanları:

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

Tövsiyə edilir: İctimai Televiziya və Radio Yayımları Şirkəti, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası
İcra müddəti: Davamlı.

Gözlənilən nəticə: qeyri-rəsmi məşğulluğa qarşı təbliğatın gücləndirilməsi

***Qeyri-rəsmi məşğulluğa qarşı reklam çarxlarının, stendlərin, broşürlərin, məlumat vərəqələrinin hazırlanması və nümayişi***

Bu fəaliyyətin icrasına məsul olan dövlət orqanları:

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti

Tövsiyə edilir: İctimai Televiziya və Radio Yayımları Şirkəti, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası

İcra müddəti: Davamlı.

Gözlənilən nəticə: qeyri-rəsmi məşğulluğun yaratdığı fəsadlar barədə əhalinin məlumatlandırılması

**Tədbirlər Planının 5-ci bölməsinində nəzərdə tutulan fəaliyyətlərlə bağlı icraçıların həyata keçirdiyi fəaliyyətlər**

İcraçı dövlət orqanlarının TP-nin 5-ci bölməsində nəzərdə tutulan fəaliyyətləri necə icra etməsini müəyyən etmək məqsədi ilə aşağıda göstərilən metod və alətlərdən istifadə edilmişdir:

1. İcraya cavabdeh olan dövlət orqanlarına yazılı informasiya sorğusu göndərilmişdir;
2. Açıq mənbələr, o cümlədən cavabdeh dövlət orqanlarının rəsmi veb səhifələrində müvafiq matreallarların və icranın gedişini əks etdirən sənədlərin yerləşdirilib-yerləşdirlməməsi araşdırılmışdır;
3. Kütləvi informasiya vasitələrində bu fəaliyyətlə bağlı müvafiq dövlət orqanlarının fəaliyyətini əks etdirən matreallarların olub-olması araşdırılmışdır.

**Vergilər Nazirliyi**

Vergilər nazirliyi qanunun tələblərini pozaraq yazılı informasiya sorğusunu cavablandırmamışdır.

Vergilər nazirliyinin rəsmi veb səhifəsinin "Dövlət Proqramlarının icrası barədə məlumatlar" bölməsində "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"-nın icrasına dair heç bir məlumat yerləşdirilməmişdir.

Kütləvi-İnformasiya Vasitələrində Vergilər Nazirliyinin Tədbirlər Planının 5.1., 5.2., 5.3.,5.4., 5.5.-ci bəndlərində nəzərdə tutulan və Vergilər Nazirliyinin icraçı olduğu fəaliyyətlərə dair heç bir məlumat yoxdur.

Beləliklə müəyyən edilmişdir ki, Vergilər nazirliyi Təbdbirlər Planının 5-ci bğlməsində əks oluan fəaliyyətlərin icrası ilə bağlı hər hansı bir fəaliyyət həyata keçirməmişdir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**

Nazirlik Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının 01 may 2018-ci il tarixli İnformasiya sorğusuna 09 iyun 2018-ci il tarixində e-mail və poçt vasitəsi ilə cavab göndərmişdir.

Cavabda Tədbirlər Planının 5-ci bölməsində (Nazirlik bu bölmədə nəzərdə tutulan bütün fəaliyyətlərdə icraçıdır) nəzərdə tutulan fəaliyyətlərə dair ümumi məlumat vermişdir. Məlumada göstərilir ki, "*Əmək qanunvericiliyinin tətbiqinin təbliğ edilməsi, xüsusilə qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, işəgötürən-işçi münasibətlərinin qanunvericiliyə uyğun rəsmilədirlməsi, sağlam və təhlükəsiz əmək şəritinin yaradılması mövzularında seminar və müşavirələrin keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin 2017-ci il 26 dekabr tarixli 17-i nömrəli əmri ilə işçi qrup yaradılmışdır. Qeyd olunan əmrin icrası olaraq Dövlət Əmək Müfəttişliyi əməkdaşları tərəfindən təsdiq olunmuş qrafikə uyğun olaraq regionlarda aidiyyəti dövlət orqanlarının, işəgötürənlərin, işçilərin və həmkarlar ittifaqları nümayəndələrinin iştirakı ilə mütamadi olaraq maarifləndirici tədbirlər keçirilir və qeyd olunan mövzular ətrafında müzakirələr aparılır.*"

Əslində verilən məlumatda sadalanan fəaliyyətlər Tədbirlər Planının icrasından daha çox Dövlət Əmək Müfəttişliyi Xidmətinin (DƏMX) vəzifələrindən irəli gələn işlərdir. Belə ki, DƏMX əsasnaməsinin 3.1.12. bəndinə görə "işəgötürənlərə və işçilərə əmək qanunvericiliyinin tətbiqi barədə metodiki köməklik göstərmək, zəruri hallarda seminarlar təşkil etmək" kimi vəzifə nəzərdə tutulmuşdur. İnformasiya sorğusuna verilən cavabda konkret fəaliyyətlərə dair, məsələn "Qeyri-rəsmi məşğulluğa qarşı reklam çarxlarının, stendlərin, broşürlərin, məlumat vərəqələrinin hazırlanması və nümayişi" ilə bağlı hər hansı məlumat yoxdur. Bu fəaliyyətlərlə bağlı nazirliyin rəsmi veb səhifəsində o cümlədən "Proqram və layihələr/Dövlət proqramları" bölməsində və kütləvi-informasiya vasitələrində hər hansı məlumat yoxdur.

Bununla belə İctimi Televiziyada məşğulluq mövzusunda, o cümlədən qeyri-rəsmi məşğulluqla bağlı verlişlərdə nazirliyin rəsmi nümayəndələri və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə müzakirələr aparılmışdır.

Aparılan araşdırmalar onu göstərir ki, əslində nazirliyin əmək münasibətləri, məşğulluq və s. uyğun mövzularla bağlı həyata keçirdiyi fəaliyyətlər onun əsasnaməsindən irəli gələn fəaliyyətlərdir və konkret olaraq Tədbirlər Planının icrası ilə birbaşa bağlı deyil. Ümumiyyətlə Tədbirlər Planının icrası məqsədi ilə nə qədər vəsitin xərclənməsinə və ümumiyyətlə nazirliyin büdcəsində belə bir xərclərin nəzərdə tutulmasına dair məlumat əldə etmək mümükün olmamışdır.

**İqtisadiyyat Nazirliyi**

İqtisadiyyat Nazirliyi Tədbirlər Planının 5-ci bölməsində nəzərdə tutulan fəaliyyətlərdən bir neçəsi üzrə icraçıdır (5.1., 5.3 və 5.4.). Bu fəaliyyətlərin icrası ilə bağlı 01 may 2018-ci il tarixində ünvanlanan yazılı informasiya sorğusuna nazirliyin 31 may 2018-ci il tarixində verdiyi cabavda Tədbirlər planının 5.1., 5.3. və 5.4. bəndləri üzrə nazirliyin gördüyü işlər göstərilir. Bunlar:

*-qeyri-rəsmi məşğulluğa dair reklam çarxının hazırlanması və sosial reklam kimi telekanallarda mütamadı verilməsi;*
*-rəsmi məşğulluq ənənəsinin formalaşdırılması məqsədilə təhsilin bütün pillələri üzrə buraxılış məntəqələrində rəsmi məşğulluğun müsbət və qeyri-rəsmi məşğulluğun mənfi cəhətlərini açıqlayan dərslərin keçilməsi;*
*-dərsliklərdə, xüsusilə Azərbaycan dili dərsliklərində istifadə olunan misallarda qeyri-rəsmi məşğulluğun mənfi cəhətlərinin qabardılması, tapşırıq və misallardan istifadə etməklə qeyri-rəsmi məşğulluğun qınaq obyektinə çevrilməsi;*
*-telekanallarda mövcud iqtisadi və sosial proqramlarda mövzuya dair bir neçə verlişin hazırlanması;*
*-maarifləndirici matrealların, məqalə və müsahibələrin hazırlanması və KİV-də işıqlandırılması;*
*-qeyri-rəsmi məşğulluğun mənfi, formal məşğulluğun üstünlüklərinə dair bukletlərin hazırlanması və şirkətlərdə paylanması və formal məşğulluğa töhfə verən şirkətlərin mükafatlandırılması;*
*-şəhərin bir-neçə yerində qeyri-rəsmi məşğulluğun təşviqinə dair (?) bilbordların yerləşirilməsi;*
*-sahibkarlıq subyektlərinin iştirakı ilə konfransların təşkili, Bakıda və regionlarda seminarların təşkili.*

İqtisadiyyat nazirliyi yuxarıda göstərilən fəaliyyətlərin həyata keçirilməsini göstərsə də açıq mənbələrdə bu fəaliyyətlərə dair məlumatlar yoxdur. Xüsusən "qeyri-rəsmi məşğulluğa dair reklam çarxının hazırlanması və sosial reklam kimi telekanallarda mütamadı verilməsi" kimi fəaliyyətlə bağlı telekanallarda hazırda sosial çarxlar nümayəş etdirilimir. Belə çarxların hazırlanmasına dair nazirliyin veb səhifəsində hər hansı məlumat yoxdur. Ümumiyyətlə nazirliyi veb səhifəsinin dövlət proqramlarına aid hissəsində **Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı** və onun icrası barədə hər hansı məlumat yoxdur.
Nazirliyin Tədbirlər Planı ilə bağlı hazırladığı fəaliyyətlər içərisində "şəhərin bir-neçə yerində qeyri-rəsmi məşğulluğun təşviqinə dair (?) bilbordların yerləşirilməsi" kimi fəaliyyət də vardır. "Qeyri-məşğulluğun təşviqi" söz birləşməsinin nə qədər uğurlu olması sual doğrurur. Bakı şəhərində əvvəlki dövlət proqramları çərçivəsində əmək müqavilələri bağlanmasının vacibliyini təşviq edən sosial reklamlar yerləşdirilirdi. İndi də o reklamların bir hissəsi qalmadadır. Lakin bu reklamların (bilbordların) məhz hansı dövlət proqramı çərçivəsində hazırlanmaı bəlli deyil. Həm də mövcud sosial reklamlar uğurlu hesab oluna bilməz və keyfiyyətsiz hazırlanmışdır.

**Təhsil Nazirliyi**

Tədbirlər planının 5-ci bölməsinin (Qeyri-rəsmi məşğulluğa qarşı məlumatlandırma və təbliğat işlərinin təşkili) 5.2. bəndində nəzərdə tutulan fəaliyyətin icrasına məsul olan dövlət orqanlarından biri də Təhsil Nazirliyidir. Nazirlik Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının 01 may 2018-ci il tarixində təqdim etdiyi yazılı informasiya sorğusuna cavab verməmişdir.
Açıq mənbələrdə və nazirliyin veb səhifəsində Tədbirlər Planının 5.2. bəndində nəzərdə tutulan **"Qeyri-rəsmi məşğulluğun aradan qaldırılmasına dair konfransların və seminarların keçirilməsi"** ilə bağlı hər hansı bir fəaliyyətinə dair məlumat yoxdur. Nazirliyin veb səhifəsinin

dövlət proqramları bölməsində[5] də Tədbirlər Planının 5.2. bəndinin icrasına dair hər hansı məlumat yoxdur.

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi**

Dövlət Agentliyinə 01 may 2018-ci il tarixində təqdim edilmiş informasiya sorğusuna 29 may 2018-ci ildə cavab vermişdir. Agentlik Tədbirlər Planının 5-ci bölməsində göstərilən fəaliyyətlərlə bağlı görülən işlərə dair məlumat təqdim etmişdir.

Tədbirlər Planının 5.1-ci bəndində göstərilən fəaliyyətlə bağlı:
Fəaliyyətin adı: Qeyri-rəsmi məşğulluqla mübarizə tədbirləri barədə genişmiqyaslı maarifləndirmə, məlumatlandırma və təbliğat kompaniyasının keçirilməsi
Görülən işlər:
•*"Əmək Bələdçisi" layihəsi çərçivəsində Bakı şəhərində yerləşən tikinti obyektlərində Monitorinq Mərkəzinin əməkdaşları tərəfindən geniş məlumatlandırma aparılmış və broşurlar paylanılmışdır*
•*Əmək Münasibətlərinin Monitorinq Mərkəzi tərəfindən əmək qanunvericiliyi üzrə məlumatlandırılma işinin aparılması məqsədilə 1 saylı Bakı "ASAN Kommunal" mərkəzində xidmət pəncərəsi təşkil edilmiş və hazırda fəaliyyət göstərir*
•*Əmək Münasibətlərinin Monitorinq Mərkəzi tərəfindən maarifləndirici www.mcenter.az saytı istifadəyə verilmişdir*
•*ASAN radio (100 FM) vasitəsilə əmək münasibətləri sahəsində audio çarxlar hazırlanmış, səsləndirmələr təşkil edilmiş və müxtəlif mövzular üzrə proqramlar hazırlanaraq yayımlanmışdır*
•*Tikinti sahəsində işləyən işçilərin maarifləndirilməsi məqsədilə əmək müqaviləsinin faydalarından bəhs edən "Məlumat kitabçası", Monitorinq Mərkəzinin fəaliyyəti barədə və əmək qanunvericiliyi üzrə "Bələdçi sənəd" hazırlanmış və aparılan monitorinqlər zamanı paylanılır*

Tədbirlər Planının 5.3-cü bəndində göstərilən fəaliyyətlə bağlı
Fəaliyyətin adı: Qeyri-rəsmi məşğulluğun mənfi nəticələrinin, formal məşğulluğun üstünlüklərinin kütləvi informasiya vasitələri ilə ictimaiyyətin diqqətinə çatdırılması
Görülən işlər:
•*Rəsmi məşğulluğun təşviq edilməsi istiqamətində "ASAN Radio" vasitəsilə Monitorinq Mərkəzinin əməkdaşlarının iştirakı ilə verilişlər təşkil edilir*
•*"ASAN Radio" vasitəsilə mütəmadi olaraq "100 sual – 100 cavab" verilişi yayımlanır*

Tədbirlər Planının 5.4-cü bəndində göstərilən fəaliyyətlə bağlı
Fəaliyyətin adı: Qeydiyyatdan yayınma hallarına daha çox rast gəlinən iqtisadiyyat sahələrindəki fəaliyyət subyektlərində qeyri-rəsmi məşğulluğun ictimai qınaq obyektinə çevrilməsinə hədəflənən təşviqat kampaniyasının təşkili.
Görülmüş iş: yoxdur
Görüləcək işlər:

[5] http://edu.gov.az/az/page/37

•*ASAN radio (100 FM) vasitəsilə əmək münasibətləri sahəsində çarxların hazırlanması, səsləndirmələrin təşkili və müxtəlif mövzular üzrə proqramların hazırlanması nəzərdə tutulmuşdur.*

**Dövlət Statistika Komitəsi**

Dövlət Statistika Komitəsi Tədbirlər Planının 5.4. bəndində nəzərdə tutulan fəaliyyətin- Qeydiyyatdan yayınma hallarına daha çox rast gəlinən iqtisadiyyat sahələrindəki fəaliyyət subyektlərində qeyri-rəsmi məşğulluğun ictimai qınaq obyektinə çevrilməsinə hədəflənən təşviqat kampaniyasının təşkili üzrə icraçı dövlət orqanıdır.
Dövlət Statistika Komitəsinə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən 01 may 2018-ci il tarixli yazılı informasiya sorğusuna cavab verilməmişdir. Komitənin "İnformasiya azadlığı ilə bağlı daxili icraat Qaydalarının"[6] olmasına baxmayaraq sorğuçulaara qanunvericilikdə nəzərdə tutulmuş informasiyanı təqdim etmir. Tədbirlər Planının 5.4-cü bəndində nəzərdə tutulan fəaliyyətin icrası ilə bağlı hər hansı işlər həyata keçirməmişdir. Komitənin rəsmi veb səhifəsində və açıq mənbələrdə komitənin bu istiqamətdəki fəaliyyəti ilə bağlı hər hansı matreal və ya sənəd yoxdur.

Tədbirlər Planının 5-ci bölməsinin 5.1., 5.3 və 5. Bəndlərinin icrasına məsul olan Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti qeyri-rəsmi məşğulluğa həsr olunmuş bir neçə verlişlər təşkil etmişdir. Bu bölmədəki fəaliyyətlərin icrasında iştirak üçün tövsiyyə olunmuş İctimai Televiziya və Radio Yayımları Şirkəti də mütamadi olaraq mövzuya uyğun proqramlar hazırlayaraq yayımlayır.

**TƏDBİRLƏR PLANININ 5-Cİ BÖLMƏSİNİN İCRASI İLƏ BAĞLI QƏNAƏTLƏR**

Qeyri-rəsmi məşğulluğun məhdudlaşdşrlması istiqamətində ən vacib fəaliyyətlərdən biri də təbliğat və maarifləndirmədir. Tədbirlər Planında təbliğat məsləsinə ciddi əhəmiyyət verilməsi də bununla bağlıdır. Tədbirlər Planının **" Qeyri-rəsmi məşğulluğa qarşı məlumatlandırma və təbliğat işlərinin təşkili"** bölməsində nəzərdə tutulan təbliğat işləri o cümlədən geniş məlumatlandırma və maaarifləndirmə tədbirlərinin icrası ilə bağlı qənaətlər aşağıdakılardır:

- İcraçı dövlət orqanlarının əksəriyyəti, o cümlədən əsas icraçı dövlət orqanı olan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tədbirlər Planının 5-ci bölməsinin icrası ilə bağlı konkret iş qrafiki və fəaliyyət planı yoxdur. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və İqtisadiyyat Nazirliyi istisna olmaqla digər icraçı dövlət orqanları yazılı informasiya sorğusu əsasında Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasına belə bir plan təqdim etməmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi, Vergilər, Təhsil nazirlikləri və Dövlət Statistika Komitəsinin rəsmi veb səhifələrdə isə ümumiyyətlə Tədbirlər Planına dair hər hansı məlumatlar yoxdur.

[6] https://www.stat.gov.az/menu/2/freedom_info/freedom_info.pdf

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının yazılı informasiya sorğusuna cavab göndərsə də, həmin məlumatda Tədbirlər Planının 5-ci bölməsinin icrasına yönələn konkret fəaliyyətlər yoxdur. Cavabda nazirliyin gündəlik fəaliyyətinə aid olan ümumi məslələrə dair məlumatlar verilir.

- Heç bir dövlət orqanı Tədbirlər Planının 5-ci bölməsində nəzərdə tutulan reklam çarxlarının, maarifləndirici bukletlərin hazırlanmasına dair məlumat təqdim etməmişdir. Bu Tədbirlər Planı çərçivəsində belə təbliğat vasitələrinin hazırlanmasına dair aidiyyatı dövlət orqanlarının veb səhifələrində və digər açıq mənbələrdə də heç bir məlumat yoxdur.

İcraçı dövlət orqanları bir qayda olaraq bir sıra  digər (əvvəlki) dövlət proqramlarında və tədbirlər planlarında nəzərdə tutulmuş işlərlə bağlı əvvəllər həyata keçirdikləri işlərə dair məlumat vermişdir.

**TÖVSİYƏLƏR**

- Tədbirlər Planı çərçivəsində, o cümlədən TP-nin 5-ci bölməsinin icrası çərçivəsinə həyata keçirilən fəaliyyətlər dövlət orqanınən həyata keçirməli olduğu fəaliyyətlərə aid olduğu üçün icraçı dövlət orqanlarının veb səhifələrində məlumatlar yerləşdirilməlidir;
- Görülən işlərə dair məlumatlar konkret olmalıdır. Məslən, "il ərzində yerlərdə seminarlar və konfranslar təşkil olunmuşdur" kimi ümumi ifadələrdən istifadə edilməməlidir. Görülən işlərin (fəaliyyətlərin) adı, keçirildiyi yer və vaxt, iştirakçıların tərkibinə dir məlumat təqdim edilməlidir. Əgər hər hansı təbliğat matrealı hazırlanıbsa onun nümunələri açıq mənbələrdə də yerləşdirilməlidir;
- Xüsusən təbliğat məslələri ilə bağlı vətəndaş cəmiyyəti qurumları ilə səmərəli əməkdaşlıq qurulmalıdır. Mümkün olan hallarda belə işlərin vətəndaş cəmiyyəti qurumları vasitəsi ilə icra olunması təmin edilməlidir;
- Görülən işlərin nəticləri və təsirləri barədə hesabatlar hazılanmalıdır. Praktika belədir ki, icraçı dövlət orqanları hesabatlarında (əgər belə hesabatlar olursa) yalnız fəaliyyətləri sadlamaqla kifayətlənir. Halbuki, görülən işlərin hansı nəticə verməsi barədə məlumat çox əhəmiyyətlidir;
- Uzunmüddətli və yaxın müddətli planda fəaliyyətlərin hansı dəyişikliyə gətmrməsi, görülən işlərin  məqsədə çatmaq üçün kifayət edib-etməməsi barədə də hesabatlarda xüsusi bölmələr olmalıdır;
- Dövlət proqramlarının, milli fəaliyyət planlarının, tədbirlər planlarının layihələrinin hazırlanması və icrası zamanı vətəndaş cəmiyyəti qurumları ilə məsləhətləşmələr aparılmalıdır. Bununla bağlı İctimi İştirakçılıq Haqqında Qanunun tələblərinə əməl olunmalıdır;
- İnformasiya Əldə Etmək Haqqında Qanunun 29.1.16. maddəsinin tələblərinə uyğun olaraq Dövlət proqramlarının, milli fəaliyyət planlarının, tədbirlər planlarının layihələri təsdiq edilənədək aidiyyatı dövlət orqanlarının rəsmi veb səhifələrində yerləşdirilməlidir.